# Yeniyetməlik yaş dövründə deviant davranışın əsas xüsusiyyətləri və pozuntularına təsir edən amillər

**Əminə Baba qızı Qədimova**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Dövlət Mədəniyyət*
*və İncəsənət Universiteti*
**E-mail:** aminaqadimova@admi.edu.az

**Rəyçilər:** p.ü.e.d, prof. L.N. Qasımova,
psixol.ü.f.d., dos.Ü.M. Qəzvini

**Açar sözlər:** yeniyetməlik dövr, deviant davranış, delikvent, anti-sosial, problemlərin həlli yolları, ailə, məktəb

**Ключевые слова:** подростковый возраст, девиантное поведение, правонарушитель, антисоциальный, решение проблем, семья, школа, и тому прочее

**Key word:** adolescence, deviant behavior, delinquent, anti-social, problem solvinq, family, school

Müasir dövrdə bütün ictimai elmlər kimi psixologiya elminin də qarşısında insan amilinin fəallaşdırmaq və onu daha da dərindən öyrənmək problemini qoymuşdur. Bir qayda olaraq yeniyetmələrin şəxsiyyəti yalnız onların qarşılıqlı fəaliyyət əsasında, müəyyən konkret tarixi şəraitdə formalaşır. Axı, insan təkcə obyekt deyildir, həm də öz xüsusi tərbiyəsinin subyektidir. Yeniyetmə yaş dövründə uşaqda özünüdərk ehtiyacı yaranır. Cəmiyyət inkişaf etdikcə, ictimai fəaliyyətin strukturu mürəkkəbləşdikcə keçmişdən əxz edilmiş təcrübənin aşılanması prosesi də çətinləşir.

Adətən, yeniyetmə neqativizmini bəzən yaşın "böhran", "keçid" dövrü hesab olunan yeniyetməlik müəllim ən çox diqqətini cəlb edən dövrdür. Keçid dövrü, cəmiyyətin bütün çatışmazlıqlarını üzə çıxarır. Bu zaman yeniyetmənin fiziki, əqli, əxlaqi, sosial inkişafında əsaslı dəyişikliklər baş verir. Psixi inkişafın bu dövrünün çətinliyi birinci növbədə ondan ibarətdir ki, yeniyetməlik çağı hələ tipik uşaqlıq dövrünün xüsusiyyətlərindən azad olmur. Yeniyetməlik uşaqlıqdan gəncliyə keçid dövrüdür: onlarda həm uşaqlıq, həm də gənclik əlamətləri özünü göstərir. Keçid dövrü müəyyən çətinliklərlə bağlıdır. Əsas çətinlik böyüklərlə yeniyetmələrin münasibətləri çətinləşir. Digər tərəfdən, biz bu dövrdə kamilliyin dayanan, müstəqilliyə, özünütəsdiqə cəhd edən, inkişafda olan insanla qarşılaşırıq.

Cəmiyyətdə qəbul edilmiş qaydalarda, davranış normalarında yeniyetmələri çətin və çətin tərbiyə olunan adlandırırlar. Çətin tərbiyə olunan mənası altında pedaqoji hərəkətlərə müqavimət göstərən, müxtəlif səbəblərlə şərtləndirilə bilən, məqsədli təhsil və tərbiyədə bəzi sosial proqramların, biliklərin, vərdişlərin, tələblərin və normaların mənimsənilməsi ilə bağlı olan səbəblər anlaşır.

Yeniyetmənin çətin tərbiyə olunması, cəmiyyətdə qoyulmuş norma və qaydalara onlar tərəfindən əməl olunmaması elmdə deviasiya adlanan hərəkətdir.

Deviasiya (yayınma) insana və onu əhatə edən aləmə məxsus olan dəyişmə hallardır. Sosial sferada dəyişiklik həmişə insanın fəaliyyəti və bir nəfərin davranışında özünü göstərən təzahürdür, hansı ki, onun ətrafındakı əhatə ilə əlaqəsini göstərir, yeniyetmənin daxili və xarici fəallığının əksidir. Əvvəl deyildiyi kimi, davranış normal və yayındırıcı ola bilər.

Aydındır ki, yayınma davranışı sosial dezadaptasiya hallarından biridir. Uşaqlar-yeniyetmə dezadaptasiyasından danışarkən bu prosesə məruz qalan kateqoriya uşaqları təyin etmək lazımdır:

— məktəbə getməyən məktəbyaşlı uşaqlar;

— yetim-uşaqlar;

— sosial yetimlər, uşaq evlərində yerin olmaması üzündən bəzən uşaqlar uzun müddət öz növbələrini gözləyirlər və bu vaxt ərzində valideyn hüququndan məhrum olmuş valideynləri ilə birgə yaşamağa məcbur olur və bu müddətdə çox vaxt ac, paltarsız qalır, fizki, psixi, seksual təzyiqə məruz qalırlar;

— narkotik və toksik maddələr qəbul edən yeniyetmələr;

— pozğun əxlaqa malik seksual yeniyetmələr;

— qanun əleyhinə hərəkət edən yeniyetmələr.

Deviasiya özündə deviant, delikvent və kriminal davranışı birləşdirir.

Deviant davranış-yayınma halları davranışlarından biridir, yaş həddinə uyğun sosial norma və davranış qaydalarının pozulması ilə bağlıdır, mikrososial münasibətlərə və yarı yaş həddində sosial qruplara xarakterikdir. Deviant davranışın yaranması uşaqların və yeniyetmələrin davranış kimi şərtləndirilir, məsələn, aqressiya, çağırış, dərsdən özbaşına yayınma, evdən getməsi və avaraçılıq, alkoqolizm və sərxoşluğa qurşanması, narkotikə meyllilik və onunla bağlı assosial hərəkətlər.

Delikvent davranış, deviantdan fərqli olaraq yeniyetmələrin təkrar olunan assosial hərəkətləri ilə xarakterizə olunur, onlar müəyyən stereotip hərəkətlərlə təyin olunur, yəni-hüquq normalarını pozan, uşağın azyaşlılığı ilə məhdudlaşdırılır.

Nəsrəddin Tusi "Əxlaqi-Nasiri" əsərində yeniyetmələrin tərbiyəsi ilə bağlı maraqlı fikirlər söyləmiş və insanların mənəvi baxımdan formalaşmasında ünsiyyətdə olduğu insanların rolunu qiymətləndirmişdir. N.Tusi hesab edir ki, "səhv tərbiyə olunmuş adam çətin ədəb öyrənərək, xüsusilə yaşı keçmiş olsa, lakin nöqsanını başa düşüb vərdişləri tərgitmək üsulunu bilsə, ona əməl etsə, səy göstərsə, xeyirxahlıqla oturub-dursa bəlkə bir şey çıxa".

Yeniyetmənin həmyaşıdları ilə ünsiyyətinin pozulması ona böyük zərbə vurur, eyni zamanda yoldaşının ona göstərilən soyuq münasibəti onun üçün ən ağır və dözülməz cəzaya çevrilir. Bu vəziyyət uzun müddət davam etdikdə təbiətcə ictimaiyyətçi olan yeniyetmə məktəbdən kənarda özünə yeni qruplar və yoldaşlar axtarır, müxtəlif küçə qruplarına qoşulur və bəzən onda qeyri-əxlaqi, təcavüzkar əlamətlər formalaşır, eqoizm, lovğalıq kimi mənfi xüsusiyyətlər əmələ gəlir. Bu cür hallar isə yeniyetmə şəxsiyyətinin pozitiv istiqamətdə formalaşmasına mənfi təsir göstərir.

Təcrübə göstərir ki, məhz həmin dövrdə deviant davraniışlı uşaqların meydana gəlməsi üçün geniş şərait yaranır. Belə yeniyetmələrin davranışı əsasən assosial davranış olub, əxlaq normalarına, cəmiyyətin tələblərinə zidd xarakter daşıyır. Yeniyetmələrin yaş xüsusiyyətlərini nəzərə almaqla, onların tələbatlarını ödəmək üçün şərait yaratmaqla, onlarla düzgün ünsiyyət qurmaqla, onları faydalı işlərə cəlb etməklə bu çətinlikləri aradan qaldırmaq mümkündür.

Yeniyetmələr arasında bəzən intizamsızlıq, qanunpozma halları müşahidə olunur. Bu isə, adətən, ailələrdə qeyri-normal tərbiyə şəraiti ilə, münaqişələrlə, yeniyetmə nəzarətsizliyi, onların mənfi küçə təsiri altına düşməsi ilə (xuliqanlıq, oğruluq, sərxoşluq, narkomaniya və s.) bağlıdır. Belə halların qarşısını almaq üçün yeniyetmələrin asudə vaxtını səmərəli təşkil etmək, onları idmana, incəsənətə, mütaliəyə, ictimai işlərə, sosial ünsiyyətə cəlb etmək lazımdır.

Adətən, bu cür yeniyetmələrlə müvafiq tərbiyəvi iş aparılmadıqda onların mənfi davranış

tərzləri özünə dərin kök salır. Sonrakı dövrdə həmin mənfi keyfiyyətlərdən yaxa qurtarmaq heç də asan olmur. Çox vaxt həmin uşaqlara düzgün yanaşılmaması onları cəmiyyət üçün yararlı adamlar kimi tərbiyə etmək işini çətinləşdirir. Bəzən məktəblərdə bu cür uşaqlara ümidsizliklə yanaşır, onları tərbiyə etməyin heç cür mümkün olmadığı qənaətinə gəlirlər.

Psixoloqlar sübut etmişlər ki, deviant davranışlı yeniyetmələrin nə assosial davranışının tərkibi, nə də bu cür davranışın faktlarının spesifik keyfiyyəti "anadangəlmə mexanizmlə" müəyyən edilmir. Adətən, bu cür uşaqlar pedaqoji cəhətdən baxımsız uşaqlardır. Onların şəxsiyyətində özünü göstərən bu cür xüsusiyyətlər pedaqoji baxımsızlıqdan irəli gəlir. Əslində bu uşaqlar psixi və fiziki cəhətdən normal olub, başqa uşaqlardan fərqlənmirlər.

Təcrübə göstərir ki, deviant davranışlı yeniyetmələrlə iş apararkən birinci növbədə onlardakı bu cür qüsurların səbəblərini aşkara çıxarmaq lazım gəlir. Lakin bununla kifayətlənmək olmaz. Deviant davranışlı yeniyetmələrdəki şıltaqlığın, inadkarlığın, sözə baxmamağın qarşısını almaq üçün həmin uşaqlara qarşı tələbkar olmaqla yanaşı, onların tələbat və maraqlarına diqqətlə yanaşmaq, onları kollektiv fəaliyyət formalarına, birgə işə cəlb etmək lazımdır.

Belə uşaqlardakı qüsurların mənbəyini aşkara çıxaran, onların fəallığını, təşəbbüskarlığını məqsədəuyğun şəkildə təşkil edən, ləyaqətinə, müstəqillik hüququna hörmət bəsləyən müəllim müsbət nəticə əldə edə bilər.

Yeniyetmə yaş dövründə onlarda özünüdərk ehtiyacı yaranır. Çox zaman "Mən kiməm?", "Həyatın mənası nədir?" kimi suallar onları düşündürür. .

Deviant davranışlı yeniyetmələrin bir qrupu özünün tənbəlliyi, fəaliyyətə cəhd göstərməmələri ilə xarakterizə olunur. Adətən, belə yeniyetmələr işə girişmək istəmir, təlim tapşırıqlarını vaxtında və tələb olunan səviyyədə yerinə yetirməyə can atmırlar. Onlarla müvafiq iş aparılmadıqda daim müəllimlə yeniyetmə arasında ziddiyyət baş verir. Müəllim belə uşaqların tənbəlliyini tez-tez onların üzünə vurduqda bu cür irada və müəllimin sözlərinə qarşı onlarda laqeydlik məna səddi yaranır. Nəticədə belə olduqda uşaqla işləmək ikiqat çətinləşir. Ona görə də bu cür yeniyetmələrlə ilk günlərdən xüsusi iş aparmaq lazım gəlir. Təcrübə göstərir ki, bu cür uşaqlarda özünü büruzə verən kiçik bir cəhdi rəğbətləndirdikdə, qeyd etdikdə onları işləməyə həvəsləndirdikdə, yerinə yetirdiyi işin nəticəsindən həzz almağa alışdırdıqda onlara məxsus "çətinlik" tədricən aradan qalxır.

Psixoloqların apardıqları tədqiqatların nəticələri və məktəb təcrübəsi sübut edir ki, deviant davranışlı yeniyetmələrlə səmərəli iş onların şəxsiyyətində özünü göstərən mənfi halları aradan qaldırmaq imkanı verir. Burada həmin işin necə təşkili həlledici rol oynayır. Məktəb təcrübəsindən aydın olur ki, belə yeniyetmələrlə iş aşağıdakıları nəzərə alan xüsusi fərdi yanaşma tələb edir.

Hər şeydən əvvəl uşağa qarşı diqqətli, xeyirxah münasibət bəsləmək lazımdır. Bunu hiss edən yeniyetmə, tərbiyəçiyə inanır, onların arasında müsbət qarşılıqlı münasibət yaranır. Belə olduqda yeniyetmə ona qarşı diqqətli olan müəllimi bir növ qəbul edir. Nəticədə müəllimin hər bir məsləhəti, tələbi yeniyetmə üçün zəruri tələbə çevrilir və tədricən müvafiq qüsurun islah olunması ilə başa çatır.

Deviant davranışlı yeniyetmələrlə iş zamanı nəzərə alınması zəruri olan hallardan biri də onların müsbət keyfiyyətlərinə istinad etməkdən ibarətdir. Yeniyetmələr özlərini qiymətləndirərkən böyüklərin onlar haqqında dediklərinə geniş istinad edirlər. Ona görə belə yeniyetmədə heç bir müsbət cəhət görmək istəməyən müəllim onun islah olunması işini daha da çətinləşdirir. Əksinə, onun müsbət cəhətlərini görən və həmin cəhətlərə istinad edən müəllim uşağın tərbiyəsində müsbət dönüş yarada bilir.

Müəllimin həmin yeniyetmədə müsbət keyfiyyəti görə bilməsi və tərbiyəvi tədbirləri hə-

yata keçirərkən ona istinad edə bilməsi başqa bir mühüm tələblə də bağlıdır. Bu da yeniyetmənin əxlaqi gücünə, potensial imkanlarına inamdan ibarətdir. Əgər müəllimdə özünün tərbiyə etdiyi yeniyetməyə qarşı bu cür inam varsa, apardığı tərbiyəvi iş də müvəffəqiyyətlə nəticələnəcəkdir.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, pedaqoji cəhətdən baxımsız yeniyetmələrlə, qanunpozanlarla aparılan iş daha mürəkkəb xarakter daşıyır. Məktəbdə apardığımız müşahidələr göstərir ki, bu cür yeniyetmələr üçün impulsiv davranış, şəxsiyyətin strukturunun pozulması xarakterik haldır. Onlarda həmin yaşa uyğun olmayan, cəmiyyətin tələblərinə zidd tələbatlar özünü göstərir. Bütün bunlar həmin uşaqlarda dostluq, yoldaşlıq, borc, namus haqqında təhrif olunmuş təsəvvürlərin yaranmasına səbəb olur. Bu cür yeniyetmələrdə mənəvi, idraki və estetik tələbatlar pozulur, təlimə maraq itir. Lakin bu sahədə alimlərin apardıqları tədqiqatlar və məktəb təcrübəsi göstərir ki, həmin uşaqlar normal əqli imkanlara malik olurlar. Ona görə də həmin uşaqları məqsədyönlü şəkildə çoxplanlı fəaliyyət sisteminə cəlb etməklə onların əqli geriləmələrini aradan qaldırmaq mümkündür.

Məktəbə daxil olan bu cür yeniyetmələrlə aparılan fərdi iş müəllim yüksək bacarıq, pedaqoji ustalıq, qayğı və səbir tələb edir. Bunları əsas tutaraq məktəbin pedaqoji kollektivi ilk növbədə bu cür uşaqların daxili aləmində baş qaldırmış mənfi halları aradan qaldırmağa çalışır. Onları uşaq kollektivinə alışdırmaq, düzgünlüyə, iradəli olmağa, özünün hər xırda qüsurlu hərəkətini cəsarətlə etiraf etməyə, tapşırılan işi vicdanla yerinə yetirməyə alışdırmaq müəllim qarşısında əsas vəzifə kimi durur.

Bütün bunlar göstərir ki, deviant davranışlı yeniyetmələrdə normal əxlaqi keyfiyyətlərin formalaşması üçün onların bu cür davranışının səbəblərinin aşkara çıxarılması və buna müvafiq fərdi yanaşılması böyüklərin düşünülmüş, qayğıkeş, eyni zamanda tələbkar münasibətlərinin olması zəruridir.

**Məqalənin aktuallığı.** Müasir dövrümüzdə bir çox elmi tədqiqatların deviant davranışın kökləri araşdırılır və və müqayisəli təhlillər aparılır.

**Məqalənin elmi yeniliyi.** Tədqiqat işində deviant davranışın əsas xüsusiyyətləri araşdırılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Müəllif tərəfindən hazırlanmış məqalədə əldə olunmuş elmi nəticələrdən təlim prosesində, eləcə də auditoriyadankənar vaxtlarda istifadə oluna bilər. Müəllif elmi nəticələrini ali məktəblərdə, elmi konfranslarda, mühazirə və seminar məşğələlərində tətbiq edilmişdir, tədris vəsaitlərinin hazırlanmasında istifdə oluna bilər.

## Ədəbiyyat


1. Ağayev Ə., Rzayeva Y., Hüseynova T., Vahabzadə T. Sosial pedaqogika. Bakı, 2008.
2. Bayramov Ə., Əlizadə Ə. Psixologiya. Bakı, 2009.
3. Seyidov S., Həmzəyeb M. Psixologiya. Bakı, 2007.
4. Nəsrəddin Tusi. Əxlaqi-Nasiri. Bakı, 2007.
5. Əlizadə H., Mahmudova R. Sosial pedaqogika. Bakı, 2013.
6. Əliyev R. Tərbiyə psixologiyası. Bakı, 2007.
7. Qədirov Ə., Xəlilov N. Yaş psixologiyası. Bakı, 1999.

**А.Б. Кадимова**

## Основные особенности девиантного поведение в подростковом возрасте и факторы, влияющие на поведенческие расстройства

## Резюме

Обсуждается теоретическая и практическая организация воспитательной работы в общеобразовательных школах. Обоснована роль воспитания в подростковом возрасте, показано влияние воспитания на формирование личности. В подростковом возрасте ребенку необходимо самосознание.

Автор рассматривает особенности содержания воспитательной равоты, а также актуальные проблемы в сфере образования.

**A.B. Gadimova**

## The mainfeatures deviant behavior in adolescence and the factors influencing behavioral disorders

## Summary

Theoretical and practical organization of educational work in secondary schools is discussed. The role ofurbringingin adolescence is substantiated, the influence of upbringing on the formation of personality is show. During adolesense, a child needs self-awareness.

The author discusses the features of the content of educational work, as well the current problems in the field of education.

**Redaksiyaya daxil olub:** 12.07.2021